...Zamandan-məkana: "Dünya sənin, dünya mənim, dünya heç kimin"; Könüldən gözə: "Qəlbimin səsindən sözüm doğulub, külək olmamışam yanan şamlara";

Könül sevdası: "Yazılmamış, duyulmamış şeiriyyəti şeirə gətir";

Həsrət: "...Şəhriyar gəlmədi...";

Söz örpəyi: "Biz qapı açmışıq öz eşqimizə, keçməyə qorxuruq: görən nə deyər";

Lirik təəssüf: "O mənim poeziyasının və yaradıcı təxəyyülünün ədəbi görüntüsünü, bədii estetik obrazını yaratmaq ilk növbədə, rəssamdan xüsusi məharət, poetik düşüncə belə tələb edir. "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı..." deyən şairin yaradıcılığına üz tutmuş rəssamın, təbii ki, Məmməd Araz qədər vətən sevgisini qəlbinə sığışdıra bilməsi, bunu əks etdirmək məharəti olmalıdır. Məmməd Araz poeziyasının Vətən haraylı çağırışlarını özündə əks etdirən özümlə oynadığım şahmata güldüm", "Dünya heç kimin", "Mən ömrümün aşrımında anlaya bildim, nəçiliyim kimliyimdən gərəkli imiş", "Şəhriyar gəlmədi", "Fikrimin çəkisi çəkimdən ağır, dartmaq da çətindir, atmaq da çətin" və başqa tablolarda rahatlıqla Məmməd Araz poeziyasının nəhayətsizliyinin və rəssam fantaziyasının çalarlarının vəhdətini görmək və sezmək mümkündür. Əgər Məmməd Araz poeziyası, duyumu hansısa şərhiz,



# Daş duyğuları isidən poeziya

## Məmməd Araz düşüncələri fırça ilə məhz belə dil açır

qəlbimə girdiyi qədər mən onun qəlbinə girə bilmədim";

Düşüncə çəkisi: "Fikrimin çəkisi çəkimdən ağır, dartmaq da çətindir, atmaq da çətin...

Qılınc və qələm: "Xətainin qılıncını suvardım, Məmməd Araz karandaşı göyərdi"...

Azərbaycan poeziyasının şah misrası sayılan Məmməd Araz duyğularının fəlsəfəsi zamandan-məkana yol açdıqca yeni çalarlarla özünü təqdim edir. Sənət dünyasından isə şairin poetik düşüncələrindən əsərlər boylanır.

Ana təbiətin vurğunu olan şairin fəlsəfi düşüncələrindəki poetikanı duyan heykəltaraş da, bəstəkar da, rəssam da mövzu alır, bu lirik könül duyğularından əsərlər yaradır.

Rəssam Kirman Abidinin yaradıcılığında isə Məmməd Araz poetikası xüsusi çəkiyə malikdir. Şairin müxtlif misra və beytlərini fırça və rənglərin dili ilə verən rəssam onları ayrıca bir albom kimi də Məmməd Araz poeziyasının vurğunlarına hədiyyə etdi. Rəssamlar İttifaqının V. Səmədova adına sərgi salonunda keçirlən "İsinsin azacıq bu daş duyğular" adlı fərdi sərgidə də məhz Məmməd Araz poetikasından soraq verildi. Məqsdimiz heç də rəssamın sərgidə 60-dək sənət əsərinin nümayişindən söz açmaq deyil.

Azərbaycan təsviri sənət aləmində Məmməd Araz poeziyasına və fəlsəfəsinə müraciət edən rəssamlar barmaqla sayılacaq qədərdir. Çünki Məmməd Araz əsərlər həmçinin səngərlərdə dayanmış igid, məğrur, cəsur, mərd əsgərlərimizə mənəvi dəstəkdir və bu təşəbbüs digər yaradıcı şəxslərə də örnəkdir.

Rəssamın fikirləri də yaratdığı əsərlər kimi, maraqlı və orijinal yanaşmaya əsaslanır: "Mənim üçün Məmməd Araz yaradıcılığı hər zaman maraqlı olub. Məmməd Arazın yaradıcılığına üç aspektdən yanaşmağa çalışdım. Həyata gülən, həyatda qəm çəkən və düşünən Məmməd Arazı göstərməyə çalışdım. Qrafik üslubda Məmməd Araz poeziyasına müraciət etmək bir müəllif olaraq məndən məsuliyyət tələb edirdi. Sevinirəm ki, üçillik zəhmətimin nəticəsi, nəhayət, özünü göstərdi".

"Bu gün gərək hər anımız Vətən desin!" haraylı şairin odda qovrulmuş alovlu misralarının hərarəti K.Abdinin bədii təxəyyülünün məhsulu olan tablolardan sezilirsə, demək, rəssam öz məqsədinə nail olub". Bu fikirlərin müəllifi, Milli İncəsənət Muzeyinin böyük elmi işçisi, sənətşünas Əsəd Quliyevin fikrincə, Məmməd Araz bədii duyumu və dünyagörüşü heç bir çərçivəyə, məhdud məkan sərhəddinə sığmır: "Ona görə də rəssamın mücərrəd biçimli bədii axtarışları və Məmməd Araz poeziyası ilə çuğlaşan əksliklər burulğanı, sonda rəssam tərəfindən şairin poetik fikirləri ilə tam üst-üstə düşən, bədii estetikliyi ilə diqqəti cəlb edən görüntülərə çevrilib. "Qayalara həkk olmayan söz itər, bu bahardan o bahara iz itər", "Mən izahsız qəbul olunursa, həmçinin bunu rəssam K.Abdinin şairin yaradıcılığına həsr edilmiş tablolarına da şamil etmək olar".

Şairin "Bu gecə yuxumda Arazı gördüm" şeirində söylədiyi fəlsəfi duyumun bədii görüntüsünü yaratmaq heç də asan deyil. Bunun üçün rəssamdan güclü yaradıcılıq əzmi tələb olunur və Kirman Abidin bu gücü özündə tapa bilib. Xalq rəssamı Altay Hacıyevin də əsərlər haqqında maraqlı fikirləri var: "Görünür, rəssam qrafika sənətinin incə mətləblərinə yaxından bələddir və şairin poeziyası ilə öz yaradıcılığı arasında harmoniyanı saxlaya bilib".

" Qəlbimdəki çırpıntını, hərarəti şeirə gətir", çünki "mən özümlə oynadığım şahmata güldüm", "kaş elə məzara gedən yoluma göy işıq olasan bu görkəmdə sən". Şair deyir ki, "ruhuma qanad verdi şirin diləklər, qəlbimə əsmədi soyuq küləklər", ona görə də bilməliyik ki, "dünya gözəl dünyadır, ömrümüzdən bir gül üzən dünyadır". Məhz buna görə, rəssamın seçdiyi beytlərdən boylanan tabloların altından oxuyuruq: "Qayalara" həkk olmayan söz itər, bu bahardan o bahara iz itər".

Sözü və izi itməyəcək Məmməd Araz poeziyasından qidalanan hər sənət əsəri də bütün fəsillərdə bahar təravətini qoruyub saxlayacaq, rəssam Kirman Abidinin fırça dilli könül duyğuları kimi

**Məhəmməd NƏRİMANOĞLU**